

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 149 (23.791)

18 avqust 2021-ci il, çərşənbə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Xəbər verildiyi kimi, avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar. Dövlətimizin başçısı Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağında inşa olunacaq 11,6 kilometrlik tunelin təməlini qoyub, 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasını işə salıb.

Prezident İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməlini qoyub.

Laçın rayonunda Laçın Beynəlxalq Hava Limanının təməlqoyma mərasimində çıxış edən Prezident İlham Əliyev azad edilmiş bölgələrin – Şərqi Zəngəzurun, Qarabağın bərpası, insanların buraya, bu zonaya qaytarılması üçün yeni imkanlar açılacağını bildirib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərdə arıçılarla görüşüb söhbət ediblər, sonra Kəlbəcər şəhərinə gəliblər. Dövlətimizin başçısı Kəlbəcər şəhərində Dövlət bayrağını ucaldıb və çıxış edib. Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Kəlbəcər şəhərindəki N hərbi hissəyə gəlib, burada yaradılan şəraitlə tanış olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərə səfər çərçivəsində "İstisu" sanatoriyasında da olublar. Dövlətimizin başçısı burada uzunluğu 51 kilometr olan İstisu-Minkənd yolunun çəkilməsi işlərinə də baxıb.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 avqust tarixli Sərəncamı ilə Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bir qrup hərbi qulluqçusu və mülki işçisi təltif edilmişdir. Təltif edilənlər arasında "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının da hərbi qulluqçuları vardır:

**Ağayev Sabir Fəzail oğlu – polkovnik-leytenant**

"Vətən uğrunda" medalı ilə,

**Qənbərov Azər Heydər oğlu – polkovnik-leytenant**

"İgidliyə görə" medalı ilə,

**Abbasov Eldəniz Hüseyn oğlu – polkovnik-leytenant**

**Heydərov Fuad Fərman oğlu – polkovnik-leytenant**

"Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişlər.

## Amerika Birləşmiş Ştatlarının səfiri Naxçıvan Dövlət Universitetində olub

*Avqustun 17-də Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqerin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində olub.*



İkitərəfli görüşdə universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru Seymur Talıbov nümayəndə heyətinin ali təhsil ocağında olmasından məmnunluq duyduğunu ifadə edib. Prorektor universitetin maddi-texniki bazası, müasir tədris üsulları, fakültələri və mövcud ixtisasları, beynəlxalq əlaqələr sahəsində qazandığı uğurları və ali təhsil ocaqları ilə qurulmuş əlaqələri diqqətə çatdırıb. Qeyd edilib ki, bakalavr təhsil səviyyəsinin əyani və qiyabi şöbələrində 61 ixtisas üzrə 5588 tələbə, magistratura təhsil səviyyəsində 81 ixtisaslaşma üzrə 348 magistrant, doktorantura səviyyəsində 52 ixtisas üzrə 107 doktorant və rezidenturada 24 ixtisas üzrə 52 rezident təhsil alır. Ali təhsil ocağında 9 ölkədən mindən çox xarici tələbə təhsil almaqdadır. Tələbələrin təlimi ilə 451 professor-müəllim heyəti məşğul olur. Naxçıvan Dövlət Universiteti iki dəfə yeni texnologiyaların tətbiqi, tədrisin səviyyəsi, mənimsəmə və davamiyyətə görə Azərbaycan Respublikası ali məktəblərinin reytinq cədvəlində birinci yerə layiq görülüb.

Səmimi görüşə və ali təhsil ocağı ilə bağlı verilən dolğun informasiyaya görə təşəkkürünü bildirən Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqer bildirib ki, bu onun Naxçıvana ilk səfəridir. Naxçıvan Dövlət Universitetinin fəaliyyətini yüksək qiymətləndirən Örl Litzenberqer qeyd edib ki, Amerika səfirliyi Azərbaycanın bir sıra ali təhsil ocaqları ilə əməkdaşlıq edir, müəllimlər, idarə heyəti üçün təlimlər, mübadilə proqramları həyata keçirilir. Reallaşdırılan layihələr çərçivəsində əsas məqsədlərdən biri də Azərbaycanda fəaliyyət göstərən ali təhsil ocaqlarında və orta məktəblərdə ingilis dilinin tədrisinin, həm bakalavr, həm də magistr pillələri üzrə mübadilə proqramlarının keyfiyyətini artırmaqdır.

Səfir qeyd edib ki, ali təhsil ocağında keçirilən görüşün məqsədi odur ki, gələcəkdə Naxçıvan Dövlət Universiteti ilə qarşılıqlı əməkdaşlıq gücləndirilsin, pedaqoji heyətin və tələbələrin də təşkil olunan proqramlara qoşulması təmin olunsun.

Görüş zamanı birgə əməkdaşlığın gələcək perspektivləri ətraflı şəkildə müzakirə olunub, qarşılıqlı fikir mübadiləsi aparılıb.

Səfir Örl Litzenberqer universitetin xatirə kitabına ürək sözlərini yazıb.

**"Şərq qapısı"**

## "Qadınların İqtisadi Səlahiyyətlərinin Artırılması" layihəsinin iştirakçıları ilə görüş

*Avqustun 17-də Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqerin rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində "Naxçıvan Muxtar Respublikasında Qadınların İqtisadi Səlahiyyətlərinin Artırılması" layihəsinin iştirakçısı olmuş qadınlarla görüşü keçirilib.*





Görüşdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək bildirib ki, komitə və Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən icra olunan Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin maliyyələşdirdiyi "İcma Quruculuğu Təşəbbüsləri Proqramı" çərçivəsində "Naxçıvan Muxtar Respublikasında Qadınların İqtisadi Səlahiyyətlərinin Artırılması" layihəsi 2021-ci ilin aprel-avqust aylarında reallaşdırılıb. Layihə çərçivəsində 20 qadına maksimum 500 ABŞ dolları dəyərində sərmayə kapitalı verilməsi nəzərdə tutulmuşdu. Lakin qadınların sahibkarlığa maraqları nəzərə alınaraq 26 qadına sərmayə kapitalı verilib. Ümumilikdə, verilən sərmayə kapitallarının dəyəri 17 min manat təşkil edib. Layihə çərçivəsində müxtəlif təlimlər də keçirilib. Təlimlərdə, ümumilikdə, 28 qadının, o cümlədən sağlamlıq imkanları məhdud və sosial qayğıya ehtiyacı olan qadınların iştirakı təmin olunub. Keçirilən təlimlərin sonunda iştirakçılar tərəfindən biznes planları hazırlanıb, ən uğurlu biznes planı hazırlayıb təqdim edən qadınlara öz potensiallarına uyğun sahələr üzrə sərmayə kapitalları verilib. Sərmayə kapitalı almış qadınlar üçün VÖEN-lər açılıb və alacaqları vəsaitlər bank hesablarına köçürülüb.

Bildirilib ki, layihə çərçivəsində sərmayə kapitallarının 70 faizi ailə təsərrüfatını genişləndirmək və ya qurmaq, 30 faizi isə dərzilik, xalçaçılıq, dekorativ-tətbiqi sənət, silahsazlıq, toxuculuq sahəsi ilə məşğul olmaları üçün verilib.

Tədbirdə çıxış edən Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqer bildirib ki, bu layihənin icrasında Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin mühüm rolu olsa da, ən böyük məsuliyyət və zəhmət layihə iştirakçısı olan qadınların üzərlərinə düşür. Azərbaycanda və Naxçıvan Muxtar Respublikasında bu sahəyə göstərilən diqqət böyükdür. Qadın sahibkarların öz ailələrinə gösərdikləri yardımı yüksək qiymətləndirən səfir qeyd edib ki, icra olunmuş bu layihələr də qadınların məşğulluqlarının artırılması ilə yanaşı, onların özünəinamlarının artmasına, psixoloji vəziyyətlərinin yaxşılaşmasına da əsaslı təsir göstərəcəkdir. Bu gün tədbirdə iştirak edən qadınların bəzilərinin bir neçə ildən sonra uğurlu sahibkar kimi özünü sübut edəcəyinə əminliyini bildirən qonaq atılan bu addımların gələcəkdə biznes sahələrinin artmasına öz töhfələrini verəcəyinə inamını ifadə edib.

Tədbirdə Azərbaycan Mikromaliyyə Assosiasiyasının layihə rəhbəri Sevinc Rüstəmova layihə çərçivəsində keçirilən təlimlər haqqında ətraflı məlumat verib. Bildirilib ki, 2019-cu ildən icra olunmağa başlanılan belə layihələrin nəticəsində bu günədək muxtar respublikada 400 qadına sahibkarlıq fəaliyyətləri ilə məşğul olmaları üçün təlim keçirilib.

Səmimi diskussiya şəraitində keçən görüş zamanı layihə iştirakçıları olan qadınlardan bir neçəsi öz fəaliyyət sahələri ilə əlaqədar geniş məlumat verib. Səfir görülən işləri yüksək qiymətləndirib və qadınlara işlərində uğurlar arzulayıb.

Komitənin foyesində layihə çərçivəsində keçirilən tədbirlərdən, sərmayə kapitalı əldə etmiş qadınların qurduqları təsərrüfat sahələrinin fotolarından, qadınların aldıqları sərmayə kapitalı dəyərində əldə etdikləri aktivlərin bəzilərinin, qadınların əl işlərindən ibarət sərgi maraqla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Səfir Örl Litzenberqer: "Amerika Azərbaycanla, o cümlədən də Naxçıvanla bir sıra istiqamətlər üzrə əməkdaşlığını genişləndirmək niyyətindədir"



Avqustun 16-da Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqerin rəhbərlik etdiyi nümayəndə heyəti muxtar respublikamıza rəsmi səfərə gəlib. Qonaqlar əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstəsi qoyub, dahi şəxsiyyətə ehtiramlarını bildiriblər. Daha sonra Heydər Əliyev Muzeyi ziyarət edilib, ulu öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanışlıq olub. Məlumat verilib ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncam əsasında yaradılıb və 1999-cu il mayın 10-da fəaliyyətə başlayıb. Muzeydə ümummilli lider Heydər Əliyevin uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, onun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid (1991-1993) şəxsi sənəd və materiallar, imzaladığı sərəncamlar, qərarlar və digər sənədlərin surətləri, həmin illərdə Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətləri toplanıb. Muzeyin kitabxanasında ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən jurnal, albom və kitablar saxlanılır.

Naxçıvan Biznes Mərkəzinə gələn qonaqlara məlumat verilib ki, mərkəzin sərgi salonunda müəssisələrdə, ailə təsərrüfatlarında istehsal olunan müxtəlif növ və çeşiddə məhsullar, sənətkarlar tərəfindən hazırlanan əl işləri, rəsm əsərləri, xalçalar və Naxçıvan Muxtar Respublikasının istehsal müəssisələrinin xəritəsi nümayiş olunur. Vurğulanıb ki, muxtar respublikada sahibkarlığın bütün parametrlər üzrə inkişafı yerli istehsalın həcminin artmasına və xarici ticarət əlaqələrinin genişlənməsinə töhfə verib, ixracyönümlü məhsul istehsalına nail olunub. Hazırda muxtar respublikada 384 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir. Təqdirəlayiq haldır ki, dünyanın 72 ölkəsi ilə ticarət əlaqələri olan muxtar respublikada 11 ildir ki, xarici ticarət əlaqələrində müsbət saldo qeydə alınır ki, bu da sahibkarlığa dövlət qayğısının bəhrəsidir.

Duzdağ Fizioterapiya Mərkəzinə gələn nümayəndə heyətinə bildirilib ki, mərkəz 1979-cu il dekabrın 29-dan 50 çarpayılıq xəstəxana kimi Naxçıvan duz mədəni bazasında, dəniz səviyyəsindən 1173 metr hündürlükdə fəaliyyət göstərir. 2003-cü ildə xəstəxananın yeraltı şöbəsində ən müasir tələblərə uyğun olaraq yenidənqurma işləri aparılıb, yeraltı şöbə genişləndirilib, müasir avadanlıq və ləvazimatlarla təmin edilib. Mərkəzin digər duz şaxtalarından üstünlüyü ondadır ki, şaxta horizontal yerləşdiyindən xəstələr yeraltı şöbəyə tez adaptasiya olunurlar. Dağın altına doğru 300 metr uzanan mərkəzdə yüksək səviyyəli xidmət şəraiti yaradılıb. Son illərdə ölkəmizin müxtəlif regionlarından, habelə dünyanın bir çox yerlərindən bronxial-astma xəstələri buraya gələrək müalicə alırlar.



Səfərin ikinci günü "Naxçıvanqala" Tarix-Memarlıq Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey kompleksləri, Nuh Peyğəmbərin məzarüstü türbəsi, Naxçıvan Dövlət Xalça Muzeyi ilə tanışlıq qədim diyarımızın tarixi, mədəniyyəti, milli-mənəvi dəyərləri, adət-ənənələri barədə nümayəndə heyətində dolğun təəssürat yaradıb.



Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqer Möminə xatın türbəsinin önündə media nümayəndələrinə müsahibə verib:

– Bu, gözəl diyar olan Naxçıvana mənim ilk səfərimdir, gəlişimdən məmnunluq duyuram. İlk olaraq səfərin yüksək səviyyədə təşkilinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə öz minnətdarlığımı bildirirəm. İki gün ərzində mənim burada müxtəlif hökumət nümayəndələri, elm adamları, qadın sahibkarlar, eyni zamanda Amerika Birləşmiş Ştatları proqramlarının məzunları ilə görüşmək imkanım oldu. Qadın sahibkarlarla görüşümdə onların gördükləri işlər, fədakarlıqları və sahibkarlıq fəaliyyətləri ilə tanış olarkən müsbət mənada təəccübləndim. Bu baxımdan müsahibəni İslam dünyasının ən cəsarətli qadınlarından biri olan Möminə xatının adına ucaldılan abidənin önündə verməyim heç də təsadüfi deyil. Fikrimcə, Möminə xatın bu gün mənimlə birlikdə həmin cəsarətli qadın sahibkarlarla görüşsəydi, ən az mənim qədər ona xoş olardı. Mən həyat yoldaşımla birlikdə Naxçıvanın məşhur turistik yerlərində oldum. Nümunə olaraq Duzdağ Fizioterapiya Mərkəzinin, Xan sarayının, Naxçıvanqalanın adını çəkə bilərəm. Səfərimin son günündə isə Əlincəqalaya getməyi planlaşdırıram. Burada müşahidə etdiyimiz qonaqpərvərlik bir daha onu göstərir ki, Naxçıvan beynəlxalq turistləri qəbul etmək üçün ideal bir yerdir.

İyul ayının axırlarında Amerika Birləşmiş Ştatlarının Oklahoma Ştatının qubernatorunu Gəncə və Zəngilana səfərdə müşayiət etdim. Bir həftə sonra Şəki və Qaxda oldum. Bu həftə isə mən gözəl Naxçıvandayam. Beləliklə də, pandemiya üzündən itirilmiş vaxtımı dəyərli şəkildə bərpa etmək istəyirəm. Qeyd edim ki, Amerika-Azərbaycan münasibətləri üç sütun üzərində dayanıb. Buna təhlükəsizlik, iqtisadi və enerji, insan haqları, qanunun aliliyinə dəstək sahələri aiddir. Amerika Azərbaycanla, o cümlədən də Naxçıvanla bütün sadaladığım istiqamətlərin hamısında əməkdaşlığını genişləndirməyə niyyətlidir. Misal üçün biz Dövlət Gömrük Komitəsi və Dövlət Sərhəd Xidmətinə narkotik qaçaqmalçılığına və digər qaçaqmalçılıqla mübarizə istiqamətində köməklik göstərə bilərik. Eyni zamanda Amerika şirkətləri üçün hər iki ölkəyə faydalı ola biləcək əməkdaşlıq imkanlarını müəyyənləşdirməkdə maraqlıyıq. Ən vacibi isə biz Naxçıvandan daha çox tələbənin Amerika Birləşmiş Ştatları tərəfindən maliyyələşən Dövlət proqramlarında iştirak etməyini arzulayırıq. Və mən çox əminəm ki, bu səfərimdə bütün bu işlər üçün zəmin yarada bilmişik.

Naxçıvanla bağlı ümumi təəssürat olaraq onu deyə bilərəm ki, öncə buranın təbii gözəlliyi füsunkardır, eyni zamanda muxtar respublikanın havası çox təmizdir. Mən burada özümü çox rahat hiss etdim. Naxçıvanın mədəniyyətini və tarixini xüsusi olaraq vurğulamaq istərdim. Buranın tarixi zamanın əvvəlinə gedib dayanır. Ən çox məni xoş mənada heyrətləndirən bu yerin insanları oldu. Qonaqpərvərliyiniz, həqiqətən də, çox təsiredicidir və mən Naxçıvan insanının ortaya qoyduğu bu isti, səmimi münasibətdən hədsiz dərəcədə məmnun qaldım. Düşünürəm ki, bu mənada, muxtar respublika dünyanın ən parlaq insanlarına sahib olan yerlərdən biridir. Eyni zamanda buranın çox dadlı, ləziz mətbəxi, yeməkləri vardır. Fikrimcə, Naxçıvanın turizm potensialı haqqında danışanda təbii gözəlliyi, mədəniyyəti, mətbəxi xüsusi qeyd etmək lazımdır. Bu üçlük dünyanın hər yerində qələbə çalan bir üçlükdür. Bu baxımdan dünya pandemiyadan sonrakı mərhələyə keçid alanda Naxçıvana xeyli sayda turist axını olacaq. Mənə gəldikdə isə, Amerikadakı bütün dost və həmkarlarıma Naxçıvan haqqında məmnunluqla bəhs edəcəyəm.

✍ **Nail ƏSGƏROV**

## Dövlət qayğısı, yaradılan şərait qələbə əzminin, vətənpərvərlik ruhunun yüksəldilməsinə xidmət edən başlıca amildir

### *Müasir hərbi infrastrukturun yaradılması muxtar respublikada ordu quruculuğunun əsasını təşkil edir*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin, eləcə də onun Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkili, Silahlı Qüvvələrimizin maddi-texniki bazasının gücləndirilməsi, şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi və hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Ölkə başçısı cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu istiqamətində görülən işləri yüksək qiymətləndirərək deyib:* ***"Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinin təmin edilməsində, hərbçilərin xidmət və məişət şəraitinin yaxşılaşdırılmasında bu obyektlərin böyük önəmi var. Çünki hərbçilərin indi xidmət şəraiti yaxşılaşır, yeni hərbi hissələr tikilir. Son illər ərzində Naxçıvanda, demək olar ki, bütün hərbi hissələr yenidən quruldu və olmayan bir çox hissələr yaradılmışdır".***



Yaxın günlərdə Naxçıvan Qarnizonu Qoşunları və Türkiyə Silahlı Qüvvələrinin idarəetmə orqanları ilə birgə keçirilən taktiki-xüsusi təlimdə "BAYRAQDAR-TB2" silahlı pilotsuz uçuş aparatının uğurla tətbiq edilməsi, Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələri üçün yeni yaşayış və xidmət kompleksinin, yeni xidməti avtomobillərin istifadəyə verilməsi qədim diyarın təhlükəsizliyinin təmin olunmasına töhfədir.

Muxtar respublikada ordu quruculuğu istiqamətində görülən işlərin davamı olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü ərəfəsində Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələri üçün yeni yaşayış və xidmət kompleksi istifadəyə verildi. Həmin kompleksdə hər biri 3 mərtəbəli olmaqla, 1 qərargah binası, 2 əsgər yataqxanası və 1 bölmələrin əşya saxlancı binası tikilib. 3 mərtəbəli qərargah binasında komandir və rəislər üçün xidməti, istirahət və növbətçi otaqları, stasionar rabitə qovşağı və taktiki siniflər olmaqla, ümumilikdə, 52 otaq yerləşir. Hərbi qulluqçular üçün müasir xidmət infrastrukturunun yaradıldığı yaşayış kompleksində olub, hərbçilərimizin də fikirlərini öyrəndik:





*Zabit Aysiman Əsədov:* – Silahlı Qüvvələrimiz daim inkişaf etməkdədir. Ordumuzun maddi-texniki bazası hər zaman gücləndirilir. Bunun nəticəsidir ki, ordumuz 44 günlük Vətən müharibəsində qələbə qazandı və torpaqlarımızı işğaldan azad etdi. Ordu quruculuğu istiqamətində görülən işlər hər zaman davam etdirilir. Bir neçə gün əvvəl hərbi hissəmiz üçün istifadəyə verilən binalarda da müasir xidməti şərait yaradılıb.

Yataqxanalarda əsgərlərin məişət şəraiti üçün müasir infrastruktur yaradılıb, yataq otaqları lazımi avadanlıqlarla təchiz olunub. Binalarda növbətçi, silah, məişət, tibb, ideoloji və komandirlər üçün iş otaqları yerləşir. İdeoloji otaqlarda əsgərlərin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi üçün lazımi şərait yaradılıb, ordumuzun keçdiyi tarixi inkişaf yolunu əks etdirən kitablar, bədii ədəbiyyatlar, stendlər, qəzet və jurnallar qoyulub. Biz də söz veririk ki, daim şəxsi heyəti döyüşə hazır vəziyyətdə saxlayacaq, bilik və bacarıqlarımızı onlara aşılayacağıq. Yaradılan şəraitə görə hərbi qulluqçular adından dövlətimizə minnətdarlığımı bildirirəm.



*Əsgər Zahid Hüseynov:* – Xidmət etdiyim hərbi hissə üçün tikilmiş yeni binalardakı yataqxana, siniflər və digər otaqlar müasir avadanlıqlarla təmin edilib. Burada asudə vaxtlarımızı səmərəli keçirməyə və qidalanmağımıza xüsusi diqqət yetirilir. Müasir sinif otaqlarında komandirlərimiz tərəfindən ixtisas dərsləri keçilir. Biz əsgərlərin vəzifəsidir ki, keçilən dərslərə xüsusi diqqətlə yanaşaq, bizə öyrədilənləri dərindən mənimsəyək, bilik və bacarıqlarımızı artıraraq xidmətimizi nümunəvi yerinə yetirək.

Ordunun gücü və qüdrəti maddi-texniki bazadan və hərbi qulluqçuların döyüş hazırlığından asılıdır. Bu gün Naxçıvan Muxtar Respublikasındakı hərbi hissələrdə olan birlik, vətənpərvərlik və yüksək döyüş əhvali-ruhiyyəsi torpaqlarımızın etibarlı müdafiəsinə və toxunulmazlığına tam təminat verir. Peşəkar zabitlərimiz bütün imkanlardan istifadə edərək şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığı ilə məşğul olur, daim hərbi-vətənpərvərlik tərbiyəsi aşılayırlar. Qalib ordunun qalib əsgəri olaraq xidmətimlə qürur duyuram.

*Zabit Yusif İsgəndərov:* – Hərbi hissədə biz zabitlərin üzərinə düşən əsas vəzifə şəxsi heyətin döyüş qabiliyyətini daim yüksək vəziyyətdə saxlamaqdan ibarətdir. Biz zabitlər şəxsi heyətə ixtisaslarına uyğun olaraq nəzəri bilikləri çatdırırıq. Şəxsi heyət qazandığı bilik və bacarıqları təlim meydanlarında praktik olaraq nümayiş etdirir. Bu fəaliyyətlərin yerinə yetirilməsində yeni istifadəyə verilən müasir sinif otaqlarının böyük rolu var.

Bölmələr üçün nəzərdə tutulmuş əşya saxlancı binası, ümumilikdə, 74 otaqdan ibarətdir. Burada bölmələrin maddi-tədris bazaları komplekt və səliqəli şəkildə yerləşir. Bu da şəxsi heyətin həmin əşyalardan səmərəli istifadəsinə şərait yaradır.



Müasir xidmət şəraiti yaradılan hərbi hissədə daimi istilik, su, elektrik və dayanıqlı rabitə sistemi quraşdırılıb. Burada abadlıq işləri aparılaraq istirahət guşələri və sıra meydanı salınıb, dekorativ ağac və güllər əkilib, ərazi işıqlandırma sistemi ilə təmin edilib. Bütün bunlar əsgərlərin həm peşəkarlığının artırılmasına, həm də asudə vaxtlarının səmərəli təşkilinə hesablanıb.

*Göründüyü kimi, Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazasının gücləndirilməsinə və şəxsi heyətin döyüş ruhunun artırılmasına hesablanmış tədbirlər mütəmadi olaraq davam etdirilir. Elə ordumuzun şəxsi heyəti də dövlətimizin bu qayğısını əməli işi ilə sübuta yetirir. Şuşaya qədər döyüş yolu keçmiş ordumuz cənab Ali Baş Komandanın tapşırıqlarını yerinə yetirməyə daim hazırdır.*

**Kənan CƏLİLOV**

*100 illik yubileyini qeyd etməkdə olduğumuz doğma “Şərq qapısı”nın oxucuları, bu mətbu orqan ilə əməkdaşlıq edən kənar müəlliflər muxtar respublikamızla məhdudlaşmır. Uzun illərdir ki, paytaxt Bakı şəhərindən, ölkəmizin digər bölgələrindən də redaksiyamıza qonaqlar gəlir, elektron ünvanımıza məktublar göndərirlər. Bu da, sözsüz ki, “Şərq qapısı”nın qarşısına qoyulan vəzifələrin öhdəsindən lazımınca gəldiyinin göstəricisidir.*

*Bir neçə gün əvvəl qəzetimizin elektron ünvanına gələn məktubu isə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya elmləri üzrə fəlsəfə doktoru Fidan Abdurəhmanova göndərib. Maraqlı olacağını nəzərə alıb həmin yazını oxucularımıza təqdim edirik.*

## Naxçıvanda tərcümə sənəti ədəbi prosesə töhfələrini verir

Bədii tərcümə yüksək yaradıcılıq və elmi-nəzəri qabiliyyət tələb edən olduqca vacib bir sənətdir. Hər bir orijinal əsərin taleyi onun tərcüməçisinin dünyagörüşü və geniş mütaliəsindən asılıdır. Bütün xalqların ədəbiyyatının inkişaf etməsi üçün tərcümə vacib şərtlərdəndir və burada ağırlıq tərcüməçinin üzərinə düşür. Böyük rus şairi A.S.Puşkinin qənaəti də bu fikri təsdiq edir: tərcüməçilər ədəbiyyatın poçt atlarıdır. Təsadüfi deyil ki, elmlərarası mübadilə, dövlətlərarası yaxınlaşma tərcümə nəzəriyyəsi və tərcümə sənətinin inkişafı sayəsində təkmilləşmişdir. Mütaliə etdiyimiz hər bir bədii əsər isə oxucuda həmin xalqların mədəni irsi və tarixi haqqında müfəssəl fikir yaradır. Burada Balzakın yazı masasının üzərindəki Napoleonun balaca heykəlciyinin altına yazdığı fikri xatırlamaq yerinə düşər: “Sənin qılıncla ala bilmədiyin yerləri mən qələmlə alacağam”.




Qürurvericidir ki, Naxçıvanda da tərcümə sənətinə maraq getdikcə artmaqdadır. Bir qədər əvvələ qayıdaraq qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Yazıçılar Birliyinin fəaliyyətinə həsr etdiyi 2012-ci il 19 oktyabr tarixli konfransında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bədii tərcümə ilə bağlı məsələlərə toxunaraq: ***“Muxtar respublikada xarici dillərin birbaşa tərcümə ilə məşğul olan yazıçı və şairlərin olmasını əsas götürərək Yazıçılar Birliyinin nəzdində Bədii Tərcümə Mərkəzi yaratmaq mümkündür”*** tövsiyəsini diqqətə çatdırıb. Bu tövsiyə əsas götürülməklə qısa bir zaman kəsiyində tərcümə ilə məşğul olan, Naxçıvanda yaşayıb-yaradan şair və yazıçılar dəvət edilərək Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyində Şirməmməd Qüdrətoğlunun rəhbərliyi ilə Bədii Tərcümə Mərkəzi yaradılıb. Burada son illərin ədəbi hadisəsi kimi bir neçə tərcüməni diqqətə çatdırmaq istərdim.

AMEA-nın müxbir üzvü Əbülfəz Amanoğlunun Türk dünyasının korifeyi Cəlaləddin Ruminin “Məsnəvi”sini ilk dəfə olaraq dilimizə tərcüməsi, həmçinin bu əsərin altı kitab şəklində Konyada nəşri, “Dünyaya pəncərə” adlı üçhissəli almanaxın, yetmiş yeddi şairin şeirindən ibarət “Nakşi-cihan Nahçıvan” kitabının türk dilində Ankarada nəşri və alman, ingilis, rus dillərindən xeyli sayda əsərin tərcüməsi mərkəzin öz işinə məsuliyyət hissi ilə yanaşmasının ifadəsidir.

Mərkəz tərəfindən hazırlanmış Şamil Zamanın Qustav Floberin “Salambo” romanı 2020-ci ilin ilk sanballı tərcümə əsəridir.

Tərcümələrdən biri Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunub. Belə ki, Naxçıvanda yaşayan şairlərin əksəriyyətinin yaradıcılığını əhatə edən “Naxçıvan şeir çələngi” kitabı oxuculara təqdim edilib. Kitaba ön söz yazmış akademik İsa Həbibbəylinin bu nəşrdəki şeirləri Azərbaycan dilindən fransız dilinə tərcümə edən Şamil Zaman haqqında qənaəti maraqlıdır: “Geniş elmi-ədəbi ictimaiyyət arasında Şamil Zaman bir ədəbiyyatşünas, istedadlı şair və nasir, bacarıqlı bir tərcüməçi kimi tanınır. Artıq onun yarım əsrə yaxın davam edən və ayrı-ayrı istiqamətlərə aid olan əsərlərindən irihəcmli biblioqrafiya yaratmaq mümkündür”.

Ədəbiyyat aləmindən həminin “Madam Bovari”nin müəllifi kimi tanıdığı Qustav Floberin ikinci romanı “Salambo”nun (1862) hazırda xarabalıqları YUNESKO tərəfindən tarixin nişanələri kimi qorunan Karfagenin (eramızdan əvvəl III əsr) tarixindən götürülmüşdür. Flober dünya ədəbiyyatında ən məşhur üslubçu sayılır. Həm yazıçının, həm də tərcüməçinin bədii üslub baxımından harmoniyası və sənətkarlığı özünü göstərməkdədir: “...çəmənlikdə adda-budda yerlərdə zanbaq gülləri yırğalanırdı; cığırlara mərcan tozu ilə qarışdırılmış qara qum tökmüşdülər və ortada isə həyətin bu başından o biri başına qədər ətrafına hər iki tərəfdən sərv ağacı salınmış xiyaban yaşıl tikili daş abidə kimi uzanıb gedirdi”. Burada Floberin üslubu Azərbaycan dilinin çalarları ilə aydın duyulmaqdadır.

Bədii Tərcümə Mərkəzi tərəfindən hazırlanaraq oxuculara təqdim olunmuş “Dünyaya pəncərə” adlı üçhissəli – hekayələr, dram əsərləri və şeirlərin tərcümələrindən ibarət almanax 2014-cü ildən nəşr edilməkdədir. Şirməmməd Qüdrətoğlunun, Hüseyn Razinin, Şamil Zamanın, Kəmalə Ağayevanın, Vaqif Məmmədovun və Elxan Yurdoğlunun dünya ədəbiyyatı lirikasından ana dilimizə tərcümələri almanaxda özünə yer alıb. “Dünyaya pəncərə” almanaxının ikinci kitabına toplanmış Vaqif Məmmədov, Hüseyn Əsgərov, Ələddin Abbasov, Bağır Qədimov, Şirməmməd Qüdrətoğlu tərəfindən dünya ədəbiyyatından qısa hekayələrin tərcümələri də oxucular tərəfindən maraqla qarşılanıb.

Almanaxın üçüncü kitabı isə Həmid Arzulunun tərcümələri əsasında Efraim Lessinqin və Bertold Brextin dram əsərlərindən ibarətdir. Filologiya elmləri doktoru, yazıçı-tərcüməçi Həmid Arzulu Stefan Svayqın poetik dili və özünün qüdrətli yazıçı təxəyyülünün vəhdəti ilə yazıçının novellalarını orijinaldan – alman dilindən tərcümə etmişdir.

Tənqidi realizmin nümayəndələrindən olan, Vyana şəhərində doğulan və kiçik yaşlarından ədəbiyyata maraqgöstərən qadın qəlbinin ən gözəl bilicisi hesab edilən XX əsrin Avstriya yazıçısı Stefan Svayqın əsərlərində dərin humanizm, həyata sonsuz məhəbbət, xüsusilə güclüdür.

“Bir qadının həyatından 24 saat” novellasındakı dil axıcılığı, qadın psixologiyasına, onun mənəvi aləminə nüfuz edərək təlatümlü sarsıntılarına müsbət təsir etmək yazıçının və tərcüməçinin sənətkarlığıdır: “Mənə elə gəldi ki, başıma, sanki ağır dəmir dəbilqə keçiriblər, bu dəbilqə mənim alnımı sıxır, ağırlığı altında isə bədənim tab gətirməyərək aşağı əyilir”. M.Qorkinin Stefan Svayqın yaradıcılığı haqqında dediyi “Qadın haqqında belə məhəbbətlə, belə ehtiramla yazan başqa sənətkar tanımıram” fikrini tamamilə Həmid Arzulunun tərcüməsində də aid etmək olar.

Əvvəldə qeyd etdiyimiz kimi yetmiş yeddi şairin şeirlərindən ibarət “Nakşi-cihan Nahçıvan” kitabının türk dilində Ankara nəşrində ulu diyarımız Naxçıvan torpağının yetişdirdiyi şairlərimizin şeirləri toplanıb. Xalq şairi Məmməd Arazın, İslam Səfərlinin şeirlərindən başlayaraq gənc şairlərimizin, xüsusilə kitabın tərcüməsində böyük zəhməti olmuş şair Elxan Yurdoğlunun Naxçıvana həsr edilmiş şeirləri bu kitabda yer almışdır.

Qeyd etdiyimiz kimi, bədii ədəbiyyatın dünya ədəbiyyatı ilə qarşılıqlı əlaqəsi, zənginləşməsi və öyrənilməsi üçün ədəbi tərcümə böyük vasitədir. Çünki dünyada biliyin zənginləşdirilməsi və qarşılıqlı öyrənilməsinin əsas vasitələrindən olan tərcümənin nüfuz etmədiyi sahə yoxdur. Bədii tərcümə ilə yanaşı, elmi əsərlərin, xüsusilə elmi məqalələr və məruzələrin tərcümələri elmi-ədəbi əlaqələri əks etdirir. Tərcümə elmi əsərlərdə dilin düzgün işlədilməsini və elmin beynəlxalq müstəvidə ədəbi-mədəni mübadilələrini həyata keçirən prosesdir. Müxtəlif xalqların ədəbi prosesinin tərcüməsinin keyfiyyətli nəticəsi üçün orijinalın müəllifi ilə tərcüməçi eyni elmi istedad səviyyəsində olmalıdır. Polşada, Rusiyada və Azərbaycanda bir sıra elmi məqalələrin müəllifi, Naxçıvan torpağının yetirməsi, sosiologiya üzrə fəlsəfə doktoru Samir Səttarov Azərbaycan Respublikasının Polşadakı səfirliyinin təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycan-Polşa diplomatik əlaqələrinin qurulmasının və bərpasının 20 illiyinə həsr olunmuş elmi konfransın materiallarını polyak dilinə tərcümə etmişdir. Həmin materiallar arasında akademik İsa Həbibbəylinin “Azərbaycan-Polşa əlaqələrində Naxçıvan”, Fəxrəddin Veysəllinin “Azərbaycan dilçiliyinin inkişafı Polşa-Azərbaycan əlaqələri kontekstində”, Afaq Ramazanovanın “Yüzyıl Azerbaycan halk edebiyatı araştırmaları tarihinde polonya bilim adamları”, Əbülfəz Quliyevin “Nizami”nin “Xosrov və Şirin”inin türkcəyə ilk tərcüməsi (XIV əsr) və əsərin bəzi dil xüsusiyyətləri” məqalələrinin tərcümələri xüsusi yer tutur.

Samir Səttarov Polşada polyaklar və azərbaycanlılar arasında elmi-mədəni və diplomatik əlaqələrin tarixini təsdiq edən yagellon sikkələrinin tapılması, Azərbaycanda qarşılıqlı yazılan formaları və xalqımızın qonaqpərvərliyindən bəhs edən, Azərbaycan etnoqrafiyasına, tarixinə, ədəbiyyatına dair bir sıra kitabları polyak dilinə tərcümə etmişdir.

*Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin Bədii Tərcümə Mərkəzi tərəfindən hazırlanmış bu tərcümələrin əsas üstünlüyü ondadır ki, onlar ənənəvi olaraq ikinci dildən, yəni rus dilindən deyil, birbaşa orijinaldan tərcümə olunmuşdur. Barəsində danışdığımız tərcümələr Bədii Tərcümə Mərkəzinin uğurlu fəaliyyətinin bəhrəsi hesab oluna bilər.*

**Fidan ABDURƏHMANOVA**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbi tənqid şöbəsinin aparıcı elmi işçisi, dosent*

*Əfsanəyə dönən ömürlər*

## Vətənə layiq oğul



Dünyada bir çox müharibələr və münaqişələr olur. Onların hər biri baş verdiyi ölkələrin tarixində müəyyən yer tutur. Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində əldə etdiyi şanlı Zəfəri hələlik heç bir ölkənin ordusu əldə etməmişdir. Bu müharibədə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə güclü Azərbaycan Ordusu özünün qüdrəti ilə müstəqil dövlətimizin tarixinə parlaq, qürurverici, şanlı səhifə yazdı. Cənab İlham Əliyev hərb meydanında müzəffər sərkərdə, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu. Azərbaycan Ordusu 30 illik həsrətdən sonra doğma torpaqlara qovuşmaq naminə güclü səbir, təmkin, ruh yüksəkliyi və peşəkarlıq nümayiş etdirdi, bütün döyüş əməliyyatlarını legitim hədəflər üzərində apardı, düşmənə dağıdıcı zərbələr vurdu, tarixi ədaləti bərpa etdi. Düşmən üzərində Böyük Qələbə qazandıq, xalqımız arzu və istəklərinə qovuşdu. Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusu döyüş meydanında sübut etdi ki, Qarabağ Azərbaycandır!

Azərbaycanın keşiyində duran mərd, igid hərbçilərimiz canları bahasına işğal olunmuş ərazilərimizi son qarışına qədər azad etmək azmi ilə 44 gün davam edən qanlı döyüşlərdə tarixi torpaqlarımızı işğaldan azad etdilər. Minlərlə igid qazi adını qazandı. Azərbaycanın üç minə yaxın qəhrəmanı torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucaldı. Həmin Vətən övladları bu müqəddəs savaşın əbədiyyətədək yaşayacaq qəhrəmanlarıdır. Belə gənclərdən biri də canı, qanı ilə yaşadığı torpağa, Vətənə bağlı olan Budaqov Rufiz Şirzad oğludur.

12 iyul 1977-ci ildə Ordubad rayonunun Tivi kəndində ziyalı ailəsində anadan olan şəhidimiz 1984-cü ildə orada birinci sinfə qəbul edilmiş, 1994-cü ildə həmin məktəbi bitirmişdi. Məktəb illərində Rufiz yüksək əxlaqi keyfiyyəti, vətənpərvərliyi, davranışı, fiziki cəhətdən hazırlığı ilə məktəb rəhbərliyinin, müəllimlərin, sinif yoldaşlarının hörmətini qazanmışdı. Erməni qəsbkarlarının torpaqlarımızı işğal etməsi hamı kimi Rufizin də həyatına dərin təsir etmişdi. Vətənə məhəbbət, erməni vandallarına qarşı nifrət, torpaqlarımızın işğaldan azad edilməsi, günahsız soydaşlarımızın qisasını almaq arzusu bütün vətənpərvər gənclər kimi Rufizin də hərbçi olmasına gətirib çıxarır. Buna görə də o, 1995-1998-ci illərdə həqiqi hərbi xidmətdə olduqdan sonra 1998-1999-cu illərdə Tank Komandir məktəbində hərb sənətinə yiyələnir. 1999-cu ildən gizir rütbəsi alan Rufiz 2004-cü ilədək tank komandiri vəzifəsində çalışır. 2004-cü ildə səhhəti ilə əlaqədar təqaüdə göndərilsə də, qəlbində olan Vətən sevgisi 2012-ci ildə tam müalicədən sonra onu yenidən hərbiyə geri qaytarır. 2016-cı ilin Aprel döyüşlərində iştirak edir. Döyüşlərdə göstərdiyi igidliyə görə yoldaşları arasında “Alov” ləqəbli döyüşçü kimi sevilir, “Qüsursuz xidmətlərinə görə” 3-cü və 2-ci dərəcəli medallarla təltif olunur. İkinci Qarabağ müharibəsi başlayanda, şiddətli döyüşlərdə igidliklə vuruşaraq şəhidlik zirvəsinə ucalır. İkinci Fəxri Xiyabanda dəfn olunur. Ailəli idi. İki qız, bir oğlan övladı var.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan Rufiz hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə, döyüşlərdə igidlik və qəhrəmanlıq göstərdiyinə görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 9 dekabr tarixli Sərəncamına əsasən “Qarabağ” ordeni ilə, 2020-ci il 15 dekabr tarixli Sərəncamına əsasən “Vətən uğrunda” medalı ilə təltif edilib.

Bəşər tarixində hər hansı bir zaman kəsiyində millətin başını göylərə ucaldan, onun şərəfini qoruyan insanlar həmin millətin tarixini yaradanlardır. Belə insanlar qısa bir ömür yaşasalar da, unudulmaz əməlləri ilə əbədiyyətə qovuşur. Bir anın içərisində ən böyük qəhrəmana çevrilir, insanlığa örnək olurlar. Özündən sonrakı nəsillərə, Vətəni, torpağı, milləti bütün insanlara sevdirməyi öyrədirlər. Şəhidlik zirvəsinə ucalmaqla ölümsüzləşirlər. Bütün şəhidlərimiz kimi gizir Rufiz Budaqov da belə qəhrəmanlarımızdandır.

**Toğrul XƏLİLOV**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

## Təcrübə kursları davam edir



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına əsasən muxtar respublikanın rayon mərkəzi və kənd sahə xəstəxanalarında, eləcə də Şərur və Ordubad Uşaq xəstəxanalarında, kənd tibb məntəqələrində məktəb şagirdlərinə ilkin səhiyyə xidməti göstərən tibb bacıları üçün praktik və nəzəri kurslar təşkil olunub. Bu il iyul ayının 12-dən start götürən kursların praktik məşğələləri Naxçıvan Tibb Kollecində, nəzəriyyə hissəsi isə Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında keçirilir. Kurslara ilkin mərhələdə 65 tibb bacısı cəlb edilib. 10-12 nəfərlik qruplar üzrə məşğələlər həftənin 5 günü həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında Poliklinika şöbəsinin müdiri Şəmsi Əsgərovun həyata keçirdiyi məşğələlərdə əsas diqqət məktəblərdə aparılan tibbi sənədləşmə işlərində tibb bacılarının fəaliyyətlərinin daha da artırılmasına yönəldilib. Məktəblər üçün zəruri olan sağlamlıq jurnallarının tərtibatı, xüsusən dispanserizasiya, infeksion xəstəliklər, Mantu (Diaskin testi) jurnallarının hazırlanması qaydaları əyani şəkildə izah edilib, suallar cavablandırılıb.

Şagirdlər arasında hər hansı yoluxucu xəstəliklərin baş verdiyi sinfin nəzarətə götürülməsi, şagirdlərin müayinələrə cəlb olunması, profilaktik peyvəndlərin vaxtında vurulması, həmçinin hiperergik reaksiyalı uşaqların müalicəsinin ixtisaslı həkimlərə yönləndirilməsi, həkiməqədərki mərhələdə hospitalizasiyasının təşkili məktəb tibb bacılarının başlıca vəzifələri kimi dəyərləndirilib.

Məktəblərdə birinci sinfə qəbul olunan şagirdlərin valideynləri tərəfindən tibbi arayışın təqdim edilməsi, şagird təhsil aldığı məktəbdən başqa bir məktəbə keçirildikdə tibbi sənədinin yeni məktəbə təqdim etmənin təmini, şagirdlərin sağlamlığına görə dərsə davamiyyətinin tibb işçisinin nəzarəti altında olması və digər məsələlər təcrübə kurslarının əsas mövzuları sırasındadır. Təcrübə kursları 18 iş günü davam edəcək.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti*

## Yaradıcılığı ilə seçilən məhdud fiziki imkanlı istedadlı qadınlarımızın məşğulluğu təmin edilir

***"Azərbaycan qadını tarixboyu öz ağlı, zəkası, namusu, qeyrəti, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi və millətinə, torpağına olan hədsiz məhəbbət və gözəlliyi ilə tanınmışdır".*** *Ümummilli liderimiz Heydər Əliyevin bu sözləri tarixin bütün dövrlərində Azərbaycan qadınının ailədə və cəmiyyətdə rolunu ən yüksək formada ifadə edir. Dahi liderin irsinin, ənənələrinin qorunub yaşadıldığı muxtar respublikamızda qadınlar, o cümlədən sağlamlıq imkanları məhdud qadınlar ictimai-siyasi və sosial-mədəni həyatda fəallıqları ilə seçilirlər. Naxçıvan şəhərində mütəmadi olaraq təşkil edilən sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış, müxtəlif yaradıcılıq müsabiqələri onların istedad və bacarıqlarının aşkar edilməsində, asudə vaxtlarının səmərəli təşkilində, rifah halının yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir. Diyarımızda sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların yaradıcılıq potensiallarının dəstəklənməsi onların yaradıcılıq əzmini daha da artırmaqla gələcək inkişafını təmin edir. İstedadlı qadınlarımızın əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.*



Haqqında bəhs edəcəyimiz Saimə Novruzova sağlamlıq imkanının məhdudluğuna baxmayaraq, öz fəaliyyətində xalqımızın qədim sənət və peşələrindən biri sayılan toxuculuğu yaşadır. Saimə xanım 1975-ci ildə Şərur rayonunun Çərçiboğan kəndində dünyaya göz açıb. Müsahibim deyir ki, uşaq vaxtımdan rəhmətlik nənəm evdə müxtəlif naxışlı xalçalar, corablar toxuyar, mən də onun toxuculuq iynələrini əlində necə tutduğuna, ilmələri necə vurduğuna baxardım. O vaxtlar Naxçıvan şəhərindən boyalı ipləri tapmaq bir qədər çətin idi. Bu gün texnikanın inkişafı bu sahədə də köməyə çatır. Əl ilə toxumaqla hazırladığımız material nə qədər gözəl alınsa da, bu gün artıq dövlətin dəstəyi ilə aldığımız toxuma makinasında rahat və bir qədər asan şəkildə, vaxta qənaət edərək işimizi görə bilirik. 11 il əvvəl muxtar respublikada təşkil edilən istedadlı qadınların əl işlərindən ibarət sərgi-satışda iştirak etdim. Günümüzdə qədim sənət növlərini yaşadan sərgilərin təşkili və əl işlərimizin satışı mənim kimi bu işlə məşğul olan digər qadınlara da çox böyük stimuldur, dəstəkdir, – deyir müsahibim.

Qeyd edək ki, Saimə xanım bu gün ucar yüksəkliklərdə torpaqlarımızı qoruyan, Vətənimizə mərdliklə xidmət edən əsgərlərimizə isti corab, boyunbağı, şərf, jilet toxuyur. Müsahibimin dediklərindən: – Biz xoşbəxtik ki, torpaqlarımız uğrunda canını sevə-sevə qurban verəcək, Vətənimizi yağılardan böyük cəsarətlə qoruyan güclü ordumuz, onun sıralarında qulluq keçən əsgərlərimiz vardır. Torpaqlarımıza keşik çəkən oğullarımızın qətiyyəti, məğrurluğu sayəsində torpaqlarımız inamla qorunur. Ötən il əldə etdiyimiz Böyük Qələbə də qorxmaz, qeyrətli Vətən oğullarımızın və Prezidentimizin qətiyyətli iradəsi sayəsində mümkün oldu. Xüsusi olaraq qeyd edim ki, bu gün muxtar respublikada əsgərə – yurdun keşikçisinə hörmətlə yanaşılır, onlara lazımi diqqət və qayğı göstərilir. Əlbəttə ki, bu qayğını 90-cı illərdə hər an işğal təhlükəsi ilə üz-üzə qalmış Naxçıvanı xatırlayanda daha yaxşı dərk edirik. O vaxtlar indiki kimi şərait yox idi ki, bizi qoruyan əsgərlərimiz üçün öz bacardığımızı edək. İndi çox şükür ki, buna şərait yaradılıb. Mən də əsgərlərimizə hörməti, köməyi həmişə özümə borc bilirəm, onları da öz övladım kimi görürəm. İlk dəfə Naxçıvan şəhərində təşkil edilən sərgidə əl işlərim nümayiş olunanda muxtar respublika rəhbəri mənim bu addımımı müsbət qiymətləndirdi. O gündən mənə də digər yaradıcılıq imkanı olan qadınlar kimi dəstək göstərildi. Mən də sənətimə daha çox bağlandım. Bu gün əl işlərim diyarımızda təşkil edilən sərgilərdə nümayiş olunur. Bacardığım işi görmək məni sevindirir, asudə vaxtımı dəyərləndirirəm. Mənim kimi sənət sahəsi ilə məşğul olanlara göstərilən diqqətə görə muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm.

Naxçıvan xalçaçılıq məktəbinin nümayəndələrindən biri olan Yeganə İsgəndərova ilə həmsöhbət oluruq. 1965-ci il mart ayının 9-da Ordubad rayonunun Nüsnüs kəndində ziyalı ailəsində anadan olub. Müsahibimin dediklərindən: – Ailəmizdə rəhmətlik atam xalça toxumağa həvəsli idi. Taxtadan hana düzəltmişdi, Naxçıvanda boyaq sexi vardı, o vaxt boyaq alıb gətirər, ipləri boyayar gözəl xalçalar toxunardı evimizdə. Mən də onda öyrəndim. Gözümü açandan evimizdə gördüyüm göz nurunun, gərgin əl əməyinin məhsulu olan xalçalar məni ilhama gətirirdi. Daha yaxşı toxumaq istəyirdim. VIII sinfi bitirəndən sonra o vaxt Ordubad şəhərində fəaliyyət göstərən Texniki Peşə Məktəbində xalçaçılıq kursu açılmışdı, ora yazıldım. Ondan mənə yadigar qalacaq bu sənəti davam etdirəcəyim üçün buna ən çox atam sevindi. Üç il kursda iki bacarıqlı ustadan bu işin dərinliklərini, incəliklərini sevərək ürəkdən öyrəndim. Məktəbi qurtarandan sonra birinci əl işimi dəzgahda toxudum. Daha sonra Ordubadda İpək Fabrikində 10 il işlədim. 1997-ci ildə rayonumuzda akademiyanın nəzdində xalça sexi açıldı, orada bir neçə il çalışdım, daha sonra işdə fasilə oldu. 11 ildən sonra yenidən dövlətin qayğısı ilə rayonda yeni xalça sexi tikildi və mən yenidən öz sevimli peşəmi davam etdirdim. Xalça sexinə getməmişdən əvvəl qonşularla birgə xovsuz xalça növü sayılan kilim toxumuşam, həmçinin millə toxumalarım olub. Bu cür toxumaları qohumlara, dost-tanışlara, uşaqlara hədiyyə etmişəm. Sexdə işlədiyim müddətdə əl işlərim çox bəyənilir, sərgilənir və ilk yerlərə layiq görülürdü. Həmçinin Bakı şəhərində təşkil edilən sərgilərə göndərilirdi. Mən də burada iştirak edib təşəkkürnamə almışam. 2014-cü ildə muxtar respublikada sağlamlıq imkanları məhdud şəxslərin istedadlarının üzə çıxarılması məqsədilə təşkil edilən əl işlərindən ibarət sərgidə iştirak etmişəm və I yerə layiq görülüb mükafat almışam. Belə tədbirlərdə iştirakım çox olub.





Müsahibim deyir ki, toxuduğum xalçalar üzərində müxtəlif ornamentlərdən istifadə edirəm. 1998-ci ildə xalça üzərində Çeşməbasar kəndindəki məscidin görünüşünü, əzəmətli Haçadağın, Möminə xatın türbəsinin emblemlərini, Haçadağın şəkli olan 12 xalça toxumuşam. Müxtəlif naxışlı, balaca və böyük ölçüdə xalçalar da toxumuşam ki, hamısı satılıb. Onu xüsusi olaraq deyim ki, mənə həmişə dəstək göstərilib. Bu gün Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə də minnətdaram. Xalçatoxuma sənətini inkişaf etdirmək üçün stol, sapları yığmaq üçün şkaf və digər ləvazimatlar verilib.

Hazırda xalça toxumağa evdə davam edirəm. Xalçaçılıqla məşğul olan insanda əl səliqəsi, böyük zövq olmalıdır ki, xalçaya da gözəllik qata bilsin, incə ornamentlər, zərif və nəfis naxışlarla onu bəzəyə, ən əsası isə gördüyü işdən zövq ala bilsin. Xalq tətbiqi sənətinin qollarından biri kimi xalçaçılıq milli dəyərlərimizi, adət-ənənələrimizi, duyğu və hisslərimizi özündə yaşadır. Bu sənət daim yaşayacaq.

1990-cı ildə Şərur rayonunda doğulan İlkanə Teymurova da toxuculuğu yaşadan gənc qadınlarımızdandır. 14 yaşından toxumağa başlayan müsahibim bir müddət mədəniyyət sahəsində çalışıb. Uşaq yaşlarından ətrafında bu sənətə bağlananlar çox olub. O da onlara baxaraq yavaş-yavaş toxumağa başlayıb. Papaq, şərf, corab, üçrəngli bayrağımızı fərqli formatda toxuduğunu deyən müsahibim muxtar respublikada təşkil edilən əl işlərindən ibarət sərgilərdə dəfələrlə iştirak edib. O deyir ki, bu il Heydər Əliyev Sarayında sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərinin sərgi-satışının iştirakçısı oldum. Əl işi toxumalarım maraqla qarşılandı, satışımız da yaxşı oldu. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi həmişə mənə işimdə dəstək göstəriblər. Bu işlə məşğul olmaqla, həm asudə vaxtımı səmərəli keçirir, həm də öz bacardığım işi sevərək görməklə daha səbirli, təmkinli olmağı öyrənirəm. Sərgilərdə iştirak etməklə isə əl işlərimizi nümayiş etdirə, tanına, satışlardan əldə etdiyimiz qazancla özümüzü, ailəmizi təmin edə bilirik. Yaradılan belə şəraitə görə minnətdarlıq edirəm.

Söhbətlərimizdən də aydın olur ki, muxtar respublikamızda sağlamlıq imkanları məhdud insanların, qadınlarımızın cəmiyyətin aktiv üzvünə çevrilməsi, onların yaradıcılıq potensiallarının üzə çıxarılması, inkişafı, özünüməşğulluğunun təmin edilməsi daim diqqət mərkəzində saxlanılır. Onlar öz yaradıcılıqları ilə xalq yaradıcılığı nümunələrimizi yaşadır, milli-mənəvi dəyərlərimizi təbliğ edirlər. Sözsüz ki, bu sahədə indiyədək qəbul edilən Dövlət proqramları, eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" nda qarşıya qoyulan vəzifələr mühüm rol oynayır. Bəhs olunan proqramın icrası gələcəkdə də məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, özünüməşğulluğunun təmin edilməsi, onların cəmiyyətə inteqrasiyası üçün əlverişli şərait yaradacaq.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

İnsan təfəkkürünə söykənən hər bir fəaliyyətin hüquqi çərçivəyə salınmasına həmişə ehtiyac olmuşdur. Belə ki, dünyada ilk qanunların qəbulundan başlayaraq hüquqi tənzimlənmə cəmiyyətin inkişafında özünəməxsus rol oynamışdır. Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasını təşkil edən Konstitusiyanın qəbulu cəmiyyət həyatında əsaslı dəyişikliklərə yol açdı və qanunvericilik sisteminin inkişafına da olduqca mühüm təsir göstərdi.

## Hüquqi Aktların Dövlət Reyestri ictimaiyyət üçün açıqdır

Ölkəmizdə və muxtar respublikada həyata keçirilən hüquqi islahatlar çərçivəsində qanunvericilik bazası tamamilə yeniləndi, normativ-hüquqi aktlar qəbul edildi. Muxtar respublikamızda da bütün sahələrə göstərilən diqqət bu sahənin də inkişaf etdirilməsinə və müasirləşməsinə öz təsirini göstərdi. Ötən dövrdə "Normativ-hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun qəbul edilməsi ilə 2012-ci il yanvarın 1-dən Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin fəaliyyətə başlaması mühüm yeniliklərdən biri kimi qəbul olunmalıdır. Qısa müddətdə muxtar respublikada Hüquqi Aktların Dövlət Reyestrinin formalaşdırılması və aparılması üçün zəruri tədbirlər həyata keçirildi. Hazırda müasir dövrün tələblərinə uyğun olaraq reyestrin fəaliyyəti muxtar respublikanın Ədliyyə Nazirliyi tərəfindən təmin olunur. Fəaliyyət göstərdiyi müddətdə reyestrə iki min üç yüzdən çox hüquqi akt daxil edilmişdir.

Reyestr hüquqi aktlarla bağlı geniş axtarış imkanlarına malikdir ki, bu da hüquqi aktların məzmunu ilə qısa bir müddətdə tanış olmağa və axtarış həyata keçirilməklə əldə edilməsinə əlverişli imkanlar yaradır. Reyestrin yaradılmasında məqsəd qəbul edilən hüquqi aktların aşkarlığının təmin edilməsinə nail olmaq, müvafiq dövlət orqanlarının qarşılıqlı əlaqələrini bu istiqamət üzrə müəyyən etməkdir.

Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantının yaradılması hüquqi aktlar barədə dövlət informasiya ehtiyatını yaratmaqla ictimaiyyətin, müxtəlif sahələrdə çalışan peşə sahiblərinin vaxt itkisinə yol verməden informasiya əldə etmək imkanlarını asanlaşdırmışdır.

Reyestrə daxil edilmək üçün təqdim edilən bütün hüquqi aktlar *hüquqiaktlar.nakhchivan.az* internet saytında dərc olunur. Həmin sayta daxil edilən hüquqi aktlar qanunla müəyyən edilən struktura uyğun yerləşdirilir. Saytın istifadəçiləri "Dövlət reyestri haqqında" adlanan bölmədə reyestrin hüquqi əsası, məqsədi və aparılması qaydası haqqında ətraflı məlumat ala bilərlər. Reyestrin elektron variantının ictimaiyyət üçün daim açıqlığı, yeni hüquqi aktlarla zənginləşməsi ondan istifadə edənlərin sayını artırır, hüquqi biliklərin təbliğinə öz müsbət təsirini göstərir.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan karateçiləri *"Çanaqqala"* turnirini uğurla tamamlayıblar

*Türkiyədə "İstiqlal Marşı"nın qəbul edilməsinin 100-cü ildönümünə həsr olunan 5-ci Çanaqqala open beynəlxalq karate turniri keçirilib.*



Naxçıvan Karate-do Federasiyasının idmançıları da yarışda öz bacarıqlarını nümayiş etdiriblər. Qaydalara əsasən idmançılar eyni anda müvafiq və bir üst kateqoriyada keçirilən kumite yarışlarında iştirak etmək imkanı əldə ediblər. Turnirə qatılan 3 karateçimizdən hər biri uğurlu nəticə göstərərək adını mükafatçılar sırasına yazdırıb.

Rafiq Hüseynli müvafiq çəki dərəcələri üzrə 10 yaşlılar arasında 1 qızıl, 1 gümüş və 11 yaş kateqoriyasında 1 gümüş medal əldə edib, əlavə olaraq komanda tərkibində üçüncülük qazanıb. Nərgiz Həsənli 12 yaşlılar arasında qalib adına layiq görülüb, özündən bir yaş böyüklərin yarışında isə 3-cü pillədə qərarlaşıb. Digər idmançımız Yaqub Qəmbərov 13 yaşlılar arasında bürünc medala layiq görülüb. Beləliklə, Naxçıvan karateçiləri beynəlxalq turnirı 2 qızıl, 2 gümüş və 3 bürünc medalla tamamlayıblar.

Qeyd edək ki, ənənəvi yarışda 5 ölkə, 80-dən artıq klub və vilayət təmsilçiləri olmaqla, ümumilikdə, 500-dən çox idmançı iştirak edib. Yarışlar karatenin "kata" və "kumite" növləri üzrə keçirilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Babayev Sənan Abbas oğlunun adına olan 67BH490 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

"Hakim Petrol" Məhdud Məsuliyyətli Cəmiyyətinə aid olan texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 668